Uşaqların tərbiyə edilməsində uşaq folklorunun, daha dəqiq desək, beşik nəğmələrinin böyük rolu vardır.

Rus tədqiqatçısı A.N.Martınova beşik nəğmələrini dörd qrupa bölmüşdür. Bunlardan birincisi tələb və arzuları ifadə edən imperativ nəğmələr, ikincisi, uşağa sağlamlıq, tez böyümək, yuxu vermək üçün müxtəlif canlılara müraciət, üçüncüsü, insanlar və əşyalar haqqında nəqli nəğmələr, dördüncüsü, ədəbi mənşəli nəğmələr (1, s.101-115).

Bu təsnifatı bölgədə topladığımız beşik nəğmələrinə də şamil etmək mümkündür. Belə ki, layla və oxşamalarda ananın öz övladına məhəbbəti, gələcəyi haqqında arzuları ifadə olunur (2, s.234-240). Məhz bu arzularda uşağa sağlamlıq, şirin yuxu (imperativ nəğmələr), böyüyəndə elinə-obasına gərəkli insan olması, onları sevməyənlərə ölüm və s. ifadə edilir. Bəzi nəğmələrdə isə həyatda baş vermiş hadisələrdən, ananın öz həyatından, taleyindən şikayəti və s. əksini tapmışdır. Belə nəğmələrin çoxu məzmununa görə bayatını xatırladır. Bir sözlə, "uşaqların qeyri-fəal iştirak etdikləri layla və oxşamalar onlara rəğmən yaransa da böyüklər tərəfindən yaradılır. Laylaları qoşanlar da, onlara musiqi bəstələyənlər də, onları oxuyanlar da analar özləri olmuşlar" (3, s.21).

Folklorşunaslar göstərirlər ki, laylalar anaların beşik başında oxuduqları nəğmələrdir, oxşamalarda isə uşaq yuxudan oyandıqdan sonra ana onu oxşayır, özünün xoş arzularını bildirir (4, s.394).

Söylədiyimiz mülahizələri sübuta yetirmək üçün bölgədən topladığımız layla və oxşamalardan bəzi nümunələri təqdim edirik:

**Laylay dedim ucadan,**
**Səsin gəlsin bacadan.**
**Allah səni qorusun,**
**Çiçəkdən, qızılcadan.**

**Laylay dedim su gələ,**
**Yata yuxusu gələ.**
**Balama laylay dedim**
**Qürbətdən dayısı gələ.**



*Xalq yaradıcılığı*

# Kiçik Qafqazın cənub-şərqindən toplanmış beşik nəğmələri

**Laylay dedim yatınca**
**Aylar gedib batınca**
**Canım cəzana gəldi**
**Sən hasilə çatınca.**

**Balam laylay, a laylay,**
**Gülüm laylay, a laylay.** *(Laçın rayon sakini Sənubər Nəcəfovadan toplanmışdır)*

**Balacasan, məzəsən,**
**Qızılgüldən təzəsən.**
**O günə qurban olum**
**Ayaq açıb gəzəsən.**

**Qızılgülün yarpağı,**
**Yastananın torpağı.**
**Balamı sevməyənin**
**Gözünə bibər yarpağı.**

**Laylay dedim yatınca,**
**Gözlərə mey batınca.**
**Sənə bir laylay çalım**
**Şirin yuxu yatınca.**

**Laylay balam, a laylay,**
**Körpə balam, a laylay.** *(Zəngilan rayon sakini Ruqiyyə İsmayılovadan toplanmışdır)*

**Qızım qızlar içində**
**Saç-birçəyi qırçında.**
**Qızıma elçi gələcək**
**Bu gələn ayın içində.**

**Qurban olum adına**
**Tanrı yetsin dadına.**
**Tanrı dadına yetəndə**
**Nənəni sal yadına.**

**Balam oturub daş üstə**
**Tel tökülüb qaş üstə.**
**Qızlar deyər: gəl qaçaq**
**Balam deyər: baş üstə.** *(Laçın rayon sakini Qızxanım Bəndəliyevadan toplanmışdır)*

**Bacadan baxdım işıqdı**
**Təknə dolu qaşıqdı.**
**Xala, qızını ver mənə**
**Qızın mənə aşiqdi.**

**Aşıqdı, ay aşıqdı,**
**Süfrə dolu qaşıqdı.**
**Ay xala, mən neyləyim?**
**Qızın mənə aşiqdi.**

**Fayton gələr, toz eylər,**
**Qız oğlana göz eylər.**
**Oğlanda təqsir olmaz**
**Hər nə etsə qız eylər.**

**Atam-anam nəstəsi,**
**Qızılgülün dəstəsi.**
**Balama pis gözlə baxan**
**Olsun illər xəstəsi.** *(Laçın rayon sakini Ruqiyyə Əliyevadan toplanmışdır)*

**O tayda qazlar,**
**Tükünü tozlar.**
**Nişanlı qızlar**
**Bu balama qurban.**

**Balamı yaradan allah,**
**Telini daradan allah.**
**Kim balamı sevməsə**
**Götür aradan, allah.** *(Qubadlı rayon sakini Ədalət Əliyevdən toplanmışdır)*

**Zoğaldan haça kəsərəm,**
**Yuxum yox, dəngəsərəm.**

**Laylay balam, a laylay**
**Gülüm laylay, a laylay.**

**Laylası var balamın**
**Yuxusu var balamın**
**Uzaq eldə səfərdə**
**Atası var balamın.**

**Laylay balam, a laylay.,**
**Gülüm laylay, a laylay.** *(Füzuli rayon sakini Miniş İsmayılovadan toplanmışdır)*

**Laylay dedim yatasan,**
**Qızılgülə batasan.**
**Qızılgülün içindən**
**Şirin yuxu tapasan.**

**Dağların lalasına,**
**Gül qoyun arasına.**
**Gündə yüz yol qurbanam**
**Balamın balasına.**

**Tanrı, bundan beş dənə ver,**
**Göydə uçan quşlara ver**
**Qarımış qocalara,**
**Evdə qalmışlara ver.** *(Kəlbəcər rayon sakini Səkinə Ədilovadan toplanmışdır)*

***Solmaz MƏHƏRRƏMOVA***

**İstifadə olunmuş ədəbiyyat**


1. Мартынова А.Н. Опыт классификации русских колыбельных песен. Советская этнография, 1974, №4.
2. Məhərrəmova S. Azərbaycan folklorunda xalq həyatının təsvirinə dair. Azərbaycan arxeologiyası və etnoqrafiyası. Bakı, 2003.
3. Azərbaycan folkloru antologiyası. İraq-Türkman cildi. (Tərtib edənlər Q.Paşayev və Ə.Bəndəroğlu). Bakı, Ağrıdağ, 1999.
4. Vəliyev V. Azərbaycan folkloru. Bakı, "Maarif", 1985.